# TANAP Avropa enerji təchizatının əsas arteriyasına çevrilir

***"Zaman bir daha Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) beynəlxalq enerji sektorunda gələcəyə hesablanmış ən uğurlu və perspektivli layihələrdən biri olduğunu təsdiqlədi".***






TANAP Konsorsiumunun Baş direktoru Saltuk Düzyolun fevralın 23-də Azərbaycanın media nümayəndələri üçün təşkil edilən onlayn mətbuat konfransında açıqlamasına bu sözlərlə başlaması təsadüfi deyildi. Bu gün dünyada baş verən siyasi hadisələr Avropa ölkələrinin enerji təchizatını ciddi sınaq qarşısında qoyduğu bir zamanda TANAP bu qitənin enerji təhlükəsizliyinin əsas təminatçısı rolunu üzərinə götürməkdədir.

Baş direktor bildirdi ki, TANAP 2018-ci il iyunun 30-da başlayan kommersiya istismarı fəaliyyətində 3 ildən artıq bir dövrü uğurla başa vurub. TANAP Azərbaycanın "Şahdəniz-2" yatağından hasil edilən qazı Türkiyə sərhədləri daxilində 20 şəhər, 67 rayon və 600 kənddən keçərək Ədirnənin İpsala rayonunda Trans-Adriatik Boru Kəməri (TAP) ilə Avropaya çatdırır.




Beynəlxalq keyfiyyət, əməyin mühafizəsi və təhlükəsizliyi, sosial və ekoloji standartlara uyğun istismarı missiyası ilə fəaliyyətini həyata keçirən TANAP, ölkəmizin və Avropa İttifaqının təbii qaz təchizatı təhlükəsizliyinə və müxtəlifliyinə töhfə verir. Beləliklə Azərbaycanın təklif etdiyi potensialla Türkiyə ilə Avropa İttifaqını bir-birinə yaxınlaşdırır. Bu xüsusiyyəti ilə TANAP, eyni zamanda, gələcəkdə planlaşdırılacaq enerji layihələri üçün ilham mənbəyi rolunu oynayır.

Azərbaycan və Türkiyənin enerji sahəsində brendləşməsinə böyük töhfələr verən Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) istismara verildiyi tarixdən 2022-ci ilin yanvar ayının sonuna qədər Türkiyəyə tədarük edilən təbii qazın ümumi həcmi 14,5 milyard kubmetrə, Avropaya verilən qazın həcmi isə 9 milyard kubmetrə çatıb.

Dünyada enerji böhranının davam etdiyi indiki vaxtda boru xəttinin böyük əhəmiyyətindən söz açan natiq vurğuladı ki, Cənub Qaz Dəhlizinin ən əhəmiyyətli həlqəsi olan TANAP, Azərbaycanın Avropa İttifaqı ilə mövcud iqtisadi və siyasi əməkdaşlığının daha da inkişafına töhfə verməklə yanaşı, Azərbaycanı Türkiyənin ikinci ən böyük qaz təchizatçısı və Avropa İttifaqının yeni qaz təchizatçısı səviyyəsinə çatdırıb.

Media nümayəndələrinin suallarını cavablandırarkən TANAP rəhbəri açıqladı ki, hazırda ötürücülük gücü 16 milyard kubmetr olan TANAP-ın əlavə investisiyalarla 31 milyard kubmetrə çatdırılması mümkündür. Lakin bunu reallaşdırmaq üçün ən azından 4-5 il vaxt lazımdır.

Saltuk Düzyol vurğuladı ki, yarandığı gündən bir çox ilklərə imza atan TANAP dünya enerji tarixində çox mühüm yer tutur. "Mütərəqqi texniki avadanlıqlara malik, keçdiyi marşrutda sosial-iqtisadi və mədəni sahələr də daxil olmaqla, hər bir sahədə dəyər yaradan, ən əsası isə iki qardaş ölkə olan Türkiyə və Azərbaycan arasında qırılmaz əlaqələrin rəmzi olan TANAP vasitəsilə, Azərbaycan qazı tarixdə ilk dəfə olaraq birbaşa dünya bazarlarına çıxır. Enerji sektorunda yeni imkanlar ortaya qoyan layihəmizlə bir çox sahələrdə ölkələrimizin inkişafına töhfə veririk. Şahdəniz-2 yatağından səyahətinə başlayan təbii qaz koronavirus pandemiyasının yaratdığı fəsadlardan təsirlənmədən 100 faiz səmərəliliklə nəqlini davam etdirir. Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun – 1850 kilometr və ən böyük diametrli təbii qaz boru kəməri olan TANAP-ın ilk gündən başlayaraq gələcəyə qədər uzanan uğurlarını izləməkdən qürur duyuruq".

Baş direktor əlavə etdi ki, TANAP layihəsinin icrası zamanı yaratdığı yeni iş və məşğulluq imkanları ilə Türkiyə iqtisadiyyatına mühüm töhfələr verib: "Layihədə, boru kəməri marşrutunun keçdiyi 20 şəhərdə investisiya dövründə təxminən 13 min nəfərə birbaşa və dolayı məşğulluq imkanları təmin edilib. Bundan əlavə, marşrut üzərində olan şəhər və rayonlarda bir çox sənaye və ticarət müəssisələri, xüsusilə kiçik və orta sahibkarlıq müəssisələri üçün yeni iş həcmi yaradılıb, həyata keçirilən sosial və ekoloji investisiya proqramları vasitəsilə yerli əhalinin iqtisadi, sosial, ekoloji və mədəni həyatı yaxşılaşıb. Bu çərçivədə 20 şəhər, 67 rayon və 600 kənddə dəqiqliklə müəyyən edilmiş mindən çox layihəyə maliyyə dəstəyi verilib".

"Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində Azərbaycanın "mavi yanacağı" TANAP vasitəsilə Türkiyə bazarına, TAP vasitəsilə Avropa bazarına ötürülür. Avropaya birinci mərhələdə 10 milyard kubmetr, ikinci mərhələdə 20 milyard kubmetr qazın ötürülməsi nəzərdə tutulur.

Mətbuat konfransında, həmçinin Rusiya – Ukrayna münasibətlərinin gərginləşməsi səbəbindən Avropa ölkələrində yaranan enerji böhranında TANAP-ın rolunun daha da artacağı fikirləri də yer aldı. Bütün bunların bir daha TANAP qaz boru xəttinin əsas təşəbbüskarı kimi çıxış edən və bu layihənin rellaşmasında sona qədər qətiyyət göstərən Azərbaycan və Türkiyə dövlət başçıları Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın nə qədər uzaqgörən siyasətçi olduqlarını bir daha dünyaya nümayiş etdirdi.

**İlqar RÜSTƏMOV,**
**"Xalq qəzeti"**